

# Gələcək üçün yol xəritəsi

***Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanan enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu uzunmüddətli, etibarlı əməkdaşlıq əlaqələrini nəzərdə tutur***

Azərbaycanla Avropa İttifaqı arasında "Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu"na Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayen tərəfindən imza atılıb. Bu memorandum əsasında Azərbaycan və Avropa İttifaqı arasında planlaşdırılmış bütün məsələlər icra olunacaq. Azərbaycan və Avropa İttifaqı arasında əlaqələr daha da inkişaf edəcək. Azərbaycanın Avropanın qaz təchizatında artan rolu ölkəmizin iqtisadi gəlirlərinin, maliyyə imkanlarının artmasına zəmin yaradacaq. İmzalanan memorandum Azərbaycana iqtisadi dividendlərlə yanaşı, həm də siyasi nüfuz qazandıracaq və Bakını Qərb dövlətləri üçün daha əhəmiyyətli edəcək. Azərbaycan hazırda Avropanın qaz təchizatında mühüm rola malikdir. Dövlət başçısı imzalanan memorandumu gələcək üçün mühüm yol xəritəsi hesab etməklə planlaşdırılan bütün məsələlərin bundan sonra da uğurla icra olunacağına əminliyini bildirdi.

Dövlət başçısı qeyd etdi ki, Azərbaycanın bu sahədəki səyləri Avropa İttifaqı tərəfindən də dəstəklənib: "Bugünkü memorandum əməkdaşlığın gələcəyi üçün yol xəritəsi rolunu oynayır. Nəzərə alsaq ki, indiyə qədər nələri planlaşdırmışdıqsa, onlara da nail olmuşuq, gələcək planlarımıza da müvəffəq olacağıq", - deyən Prezident İlham Əliyev, həmçinin qeyd edib ki, Azərbaycan ilə Avropa İttifaqı arasında uzunmüddətli və etibarlı əməkdaşlıq bizim böyük uğurumuzdur. Azərbaycanın müəllifi olduğu və Avropa İttifaqının dəstəklədiyi enerji layihələri Avropanın enerji xəritəsini tamamilə dəyişdirir. Artıq Xəzər dənizini Qara dəniz və Aralıq dənizi ilə birləşdirən neft kəməri çəkilib. Həyata keçirilən enerji layihələri nəticəsində Azərbaycan öncə neft hasilatı, sonra isə qaz hasilatını icra etməyə başlayıb. Dünyanın meqa layihəsi olan 3500 kilometrlik Cənub Qaz Dəhlizi vasitəsilə bu gün Azərbaycanın təbii qazı Avropa qitəsinə çatdırılır. Onu da qeyd edək ki, dünyada baş verən geosiyasi proseslərin, qarşıdurmalar fonunda enerji təhlükəsizliyi məsələləri bu gün vacib faktora çevrilib. Hazırda, bütün ölkələr, xüsusilə də Avropa ölkələri üçün enerji təhlükəsizliyi gündəlikdə dayanan əsas məsələlərdəndir. Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu enerji siyasəti nəticəsində Azərbaycan Avropanın enerji təhlükəsizliyinin qarantı rolunda çıxış edir. Bu sahədə ölkəmizlə Avropa İttifaqı arasında enerji sahəsində uzunmüddətli, proqnozlaşdırılan və çox etibarlı əməkdaşlıq əlaqələrinin mövcudluğu böyük əhəmiyyətə malikdir.

Qeyd etmək lazımdır ki, Azərbaycanın Aİ ilə enerji əməkdaşlığının 15 ildən çox tarixi var. Prezident İlham Əliyev xanım Ursula Fon der Lyayen ilə keçirilən görüşdən sonra mətbuata açıqlamasında bu barədə deyib: "Bizim enerji sahəsində əməkdaşlığımızın 15 ildən çox tarixi var. Bugünkü sənəd Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində imzalanmış ilk sənəd deyil. Biz 2006-cı ildə də sənəd imzalamışıq. 2011-ci ildə Cənub Qaz Dəhlizi ilə bağlı sənəd imzalanıb. Beləliklə, bizim əməkdaşlığımızın uğurlu tarixi var". Sənədə əsasən Azərbaycandan Avropa İttifaqına təchiz edilən qazın həcmi ikiqat artırılacaq. Avropa İttifaqı Azərbaycanı Avropa ilə birləşdirən Cənub Qaz Dəhlizini genişləndirmək və Azərbaycan qazının tədarükünü iki dəfə artırmaq niyyətindədir. Yeni saziş, həmçinin emissiyaların azaldılmasına və bərpaolunan enerji mənbələri sahəsində əməkdaşlığın genişləndirilməsinə yönəldiləcək. Ursula Fon der Lyayen Azərbaycan Prezidenti ilə birgə mətbuat konfransında bəyan edib ki, Brüssel etibarlı enerji təchizatçıları axtarır, onlardan biri də Azərbaycandır. İmzalanan memorandumla Aİ-nin Cənub Qaz Dəhlizinin genişləndirilməsi ilə bağlı üzərinə öhdəlik götürdüyünü bildirən Ursula Fon der Lyayen qeyd edib: "Bu, artıq Avropa İttifaqı üçün çox vacib təchizat marşrutudur və onun vasitəsilə ildə 8 milyard kubmetr qaz nəql edilir. Biz bir neçə il ərzində onun ötürücülük imkanını 20 milyard kubmetrə çatdıracağıq. Gələn ildən biz 12 milyard kubmetr göstəriciyə çatacağıq, beləliklə Rusiyadan qaz təchizatının həcmini azaldacağıq və Avropanın təchizat təhlükəsizliyinə ciddi töhfə verəcəyik". Sənəd tərəflər arasında strateji əməkdaşlığın daha da gücləndirilməsinə xidmət edəcək. Enerji təhlükəsizliyi məsələsi isə bu gün də aktual olan və heç zaman olmadığı qədər vacib məsələdir.

Ölkəmizdə bərpaolunan enerji istehsal Avropa tərəfindən yüksək dəyərləndirilir və hətta külək və günəş enerjisinə sərmayə qoyuluşu prosesi də başlanmışdır. Qarabağ və Şərqi Zəngəzurun azad torpaqlarında məhz günəş və külək enerjisinin potensialı 9200 meqavatdır. Xəzər dənizində isə külək enerji potensialı 157 meqavata bərabərdir. Xəzər dənizinin də külək enerjisi üzrə yüksək potensialını nəzərə alsaq yaxın gələcəkdə Azərbaycanda çoxlu sayda bərpaolunan enerjisi mənbələrinin yaradılacağını əminliklə demək olar. Həmçinin Xəzər dənizində gələn illər ərzində istifadəyə veriləcək yeni qaz yataqları da mövcuddur. Bərpaolunan enerjidən istifadə nəticəsində ixrac üçün daha çox qaz ehtiyatı təmin olunacaqdır. Ölkəmizin malik olduğu çox böyük günəş və külək enerjisi potensialından istifadə edilməklə "yaşıl" hidrogen istehsalının təşkili və ixracı, bizə təkcə maddi mənfəət gətirməyəcək, eyni zamanda da təbii qaz kimi bərpa olunmayan fosil yanacağı növünü əvəz etməklə ekoloji təmizliyin təmin olunmasına şərait yaradacaq. Mərkəzi Asiya ölkələrinin resurslarından, Xəzərdə ən iri ticarət donanmasına, müasir infrastruktura, gəmiqayırma zavoduna, yeni dəniz limanına, bütün istiqamətlərdə dəmir yolları infrastrukturuna malik olan ölkəmizin imkanlarını səfərbər etməklə istifadə edilməsi, bu ölkələrin potensialı arasında şəbəkə qurulmasının ən vacib amilidir.

Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayenin səfəri, şübhəsiz ki, ilk növbədə Avropanın maraqlarının təmin edilməsi ilə əlaqədardır. Ancaq bu, eyni zamanda Azərbaycanın da maraqlarına xidmət edən, qarşılıqlı etimad, iqtisadi, texnoloji və elmi potensialımızı təkmilləşdirməyə, siyasi çəkimizi və təsirimizi artırmağa xidmət edən hadisədir. Memorandum gələcək birlik və əməkdaşlığın yol xəritəsi olmaqla planlaşdırılmış bütün məsələlərin icrasını təmin edəcək. Azərbaycan coğrafi mövqe və müasir daşımalar infrastrukturunu nəzərə alaraq, şəbəkələr qurulması üzərində daha fəal çalışmağa başlamalıdır. İmzalanan saziş üzərində iş gedir və hazırlıq işləri gələn ay başa çatdırılacaq. Dövlət başçısının vurğuladığı kimi, Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlərin böyük gələcəyi var. Şərq Tərəfdaşlığı Proqramı çərçivəsində ikitərəfli qaydada iş aparılır. Avropa İttifaqı Azərbaycan üçün əsas ticari tərəfdaşdır. Ticari dövriyyənin artırılması xalqlarımızın rifahı naminədir. Ümumiyyətlə, ölkəmizin əldə etdiyi bütün nailiyyətlər, qazandığı uğurlar, ikitərəfli əməkdaşlıqlar onu deməyə əsas verir ki, Azərbaycanın bundan sonra da beynəlxalq arenada mövqeyi daha da möhkəmlənəcək.

**Mustafa KAMAL,**
**"Respublika".**